## 2022-ci il "Şuşa ili"dir

# Şuşa - solan arzularımızın nicat tapdığı sehrli məkan

*Kiçik Qafqaz dağlarının yaratdığı gözəlliklərin qoynunda yerləşən Şuşa ötən əsrlərdə Qarabağ xanlığının paytaxtı olmuşdur. Təbiətin öz möcüzələrini əsirgəmədiyi bu şəhərin yetişdirdiyi şairlər, rəssamlar, memarlar, musiqiçilər ölkənin tarixi-mədəni irsinə həmişə öz töhfələrini vermişlər. Bu səbəbdən Şuşa Azərbaycanın mədəniyyət paytaxtı hesab olunur. Ölkə prezidenti İlham Əliyevin 2022-ci ili «Şuşa ili» elan etməsi də bu baxımdan çox təqdirəlayiqdir.*

Bəllidir ki, Həsən bəy Hadi, Qəmər bəyim Şeyda, Abdulla Paşa Canızadə, Qasım bəy Zakir, İbrahim bəy Azər, Mirzə Ələsgər Növrəs, Mirzə Bəybaba Fəna, Mirzə Hüseyn bəy Salar, Mirzə İbrahim bəy Səba, Mirzə Məhəmməd Katib, Mirzə Məhəmmədkərim bəy Kəbirli, Məhəmmədəli bəy Məxfi, Mir Möhsün Nəvvab, Natəvan, Baba bəy Şakir, Üzeyir Hacıbəyov, Əbdürrəhim bəy Haqverdiyev, N.Vəzirov, S.S.Axundov, Bülbül, Süleyman Ələsgərov... və daha neçə-neçə görkəmli şəxsiyyət yetişdirmiş Şuşa 8 may 1992-ci ildə ermənilər ttərəfindən işğal olunmuş, şəhərin strateji resursları yerlə-yeksan edilmişdir. Birinci Qarabağ müharibəsində ard-arda işğal olunan rayonlarımız kimi Şuşa da faciəvi həyat yaşamış, insanlarından uzaq düşmüşdür. Bu füsunkar təbiət gözəlinin qopartdığı haray, çəkdiyi ah-nalə 28 il xalqımıza dağ çəkdi və hər dəfə ermənilərin Şuşada hökmranlıq etdiyini görəndə içimiz yandı, sinəmizdə acı göynərtilər baş qaldırdı. Yalnız 28 ildən sonra müzəffər Ali Baş Komandan, qüdrətli sərkərdə İlham Əliyevin «Dəmir Yumruq» əməliyyatı altında şanlı ordumuz Azərbaycanın işğal altında inilti çəkən torpaqlarını, o cümlədən, 8 noyabr 2020-ci ildə Şuşanı düşmən tapdağından xilas etdi. Bunun isə nə demək olduğu sözlə təsvir olunmaz. Çünki təxminən 230 ildən sonra Azərbaycan öz torpaqlarına sahiblik haqqı tapdı, yeni özü öz torpağının sahibinə çevrildi. 44 günlük müharibə dövründə dünyanın güclü dövlətlərinin rəhbərləri ölkə başçısı cənab İlham Əliyevə xüsusi təzyiqlər göstərdi, müəyyən iqtisadi çətinliklərə əl atdılar, lakin xalqımıza Zəfər qazandıran Ali Baş Komandanımız təhdidlərdən çəkinmədi, mərd-mərdanə hər gün uğurlarımıza xor baxanlara öz yerlərini göstərdi, dünyanın aparıcı mətbuatlarına verdiyi ibrətamiz müsahibələrlə bir daha yenilməz söz sahibi olduğunu təsdiqlədi.




Cənab Ali Baş Komandanımız 8 noyabr 2020-ci ildə Birinci Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarı önündə fəxrlə deyəndə ki, xoşbəxtəm ki, ata vəsiyyətini yerinə yetirdim, dünya həmin an ölkə başçısının hansı ucalıqda, hansı zirvədə qərar tutduğuna şahidlik etdi.

Şuşanın işğaldan azad olunması təkcə tarixi zəfərimiz deyildi, həm də 44 günlük müharibə zamanı ordumuza qarşı təhdidlər aparan dünya üzərində liderlik keyfiyyətləri aşılamaq idi. Bu qətiyyət cənab İlham Əliyevdə var idi və o, bunu bacardı.

Şuşanın əsarətdən qurtulmasından az sonra orada abadlıq, quruculuq işlərinə başlanılması, işlərin uğurla aparılması da göstərir ki, Azərbaycanın iqtisadi potensialı tükənməzdir.

Şuşada keçirilən «Xarıbülbül» festivalı zamanı o təbiət gözəlinin qoynuna toplaşanlar bir daha əmin oldular ki, Şuşa Azərbaycan torpağıdır, Qarabağ Azərbaycandır! Necə ki, ölkə başçısı bu sözləri hələ müharibədən əvvəl dünya liderləri qarşısındakı çıxışında səsləndirmişdi.

Nəhayət, 22 aprel 2022-ci il tarixdə Şuşada Dünya Azərbaycanlılarının beşinci Qurultayının keçirilməsi, dünya azərbaycanlılarının 30 ildən sonra yenidən Şuşada bir araya gəlməsi zəfər tariximizin şanlı modeli kimi təcəssüm edir və bu nailiyyətə görə dəmir yumruqlu prezidentimizə, 44 günlük müharibədə canlarını qurban vermiş şəhid oğullarımıza və ağır şəkildə yaralanmış qazilərimizə minnətdarıq.

Prezident İlham Əliyevin Şuşada keçirilən Qurultayda dediyi bu sözlər də zəfərimizin ölməzliyinə işarə vurur: «Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır. Hazırda ölkəmizin müxtəlif yerlərində, ilk növbədə, azad edilmiş ərazilərdə Zəfər muzeyləri inşa edilir... Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır. Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir».

Bəli, torpaqlarımızın geri alınacağına ümidimizi itirdiyimiz, hətta bəzi şəxslərin dövlətin bu istiqamətdə apardığı işdən narazı olduğu halda qəfil bir möcüzə baş verdi - təxminən 30 il işğal altında ağı deyən torpaqlarımız Ali Baş Komandan İlham Əliyevin və şanlı ordumuzun gücü ilə azad edildi. İndi bütün dünya İlham Əliyevin uzaqgörən diplomatiyası ilə hesablaşır. Bu isə bütövlükdə, Azərbaycanımızın parlaq uğuru, tarixdəki yerimizin daha da möhkəmlənməsi anlamına gəlir.

Şuşanın azadlığı içimizdə ləngər vuran arzularımızın körpə uşaq kimi soyuqdan titrəyən sədalarına güc verdi, biz indi Şuşamıza rahat gedib-gələ bilirik. Bir müddətdən sonra isə ermənilərin işğal zamanı viran günə qoyduqları, hazırda azadlıq nəğməsi oxuyan digər yurdlarımıza elin köçü başlayacaq və o torpaqlarda həyat yenidən öz ahənginə düşəcək. Mənim qəhrəman xalqım ancaq və ancaq zəfərini xatırlayacaq və onunla öyünəcək. Dünya tarixinə Azərbaycanımızın adını qızıl hərflərlə həkk edəcək. Sənə min şükür, Tanrım...Şuşa sevdası hələ davam edir...

Varlığınla qürur duyuruq, ölkə prezidenti İlham Əliyev!

Var olsun qüdrətli Ordumuz!

Qarabağ əbədiyyən Azərbaycandır!

**Nərgiz Fətiyeva,**
**Azərbaycan Dövlət Pedaqoji Unversitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin dil-ədəbiyyat müəllimi**